AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ

# SƏRƏNCAM

№ 670

Bakı şəhəri 06 oktyabr 2017-ci il

“Fiziologiya və insan sağlamlığı” mövzusunda
V Qurultayın keçirilməsi haqqında

10-11 oktyabr 2017-ci il tarixində AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun 50 illiyinə həsr olunmuş “Fiziologiya və insan sağlamlığı” mövzusunda Azərbaycan fizioloqlarının V Qurultayının keçirilməsi nəzərdə tutulur.

Tədbirin keçirilməsini təmin etmək məqsədilə:

1. AMEA Fiziolgiya İnstitutunun direktoru, biologiya üzrə elmlər doktoru Ulduz Həşimovaya tapşırılsın ki, tədbirin keçirilməsi ilə əlaqədar təşkilati məsələlərin həllini təmin etsin.
2. AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, tədbirin keçirilməsi ilə bağlı maliyyə məsələlərinin həllini təmin etsin.
3. Sərəncamın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

Əsas: AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun direktoru, biologiya üzrə elmlər doktoru Ulduz Həşimovanın 02 oktyabr 2017-ci il tarixli 049-1-7/262 nömrəli müraciəti

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT